# QƏRBİ AZƏRBAYCANŞÜNAS ALİM-ZİYALI HAQQINDA ETÜDLƏR

**Azərbaycanın orta əsr müsəlman maarifçiliyinin klassiklərindən olan Nəsirəddin Tusi yazırdı ki, "Elm-varlığın həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı (nəfsi-əmri) və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir. Əməl-gizli nəsnələri ortaya çıxarmaq, müxtəlif sənət və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir, bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun".**

Göründüyü kimi indi ziyalılardan gözlənti əsasən ictimai-elmi fəaliyyətin əsasına elə nüansları daxil etməsidir ki, millliklə bəşəriliyin vəhdətini ehtiva etsin.

Bu baxımdan İctimai-humanitar və publisistik mühitdə üç tip düşüncə sahibləri məxsusən diqqəti cəlb edir.

Birincilər-müstəqil düşüncə sahibləridir. Onlar dünyaya, milli mədəniyyətlərə, sivilizasiyalar tarixinə, hər bir hadisənin iç qatına, - mahiyyətinə yaxşı bələd olan faktlara, informasiyalara, nəzəri kökənli məlumat və bilgilərə zahiri, statistik səviyyədə deyil, fəlsəfi ümumiləşdirmə kreativləri ilə yanaşırlar. Yeni düşüncə tərzi, novatorluq meylləri bu tip insanların xarakterini tamamlayır.

İkincilər zahirən, müstəqil düşüncəyə əsaslanan üsluba malik olsalar da düşündüklərini eynən yüksək koqnitiv mühakimələrlə əsaslandırmaq imkanına malik deyillər. Onlar sadəcə geniş informasiyaya malik, məlumatlı insanlardır, ancaq ənənəvi ictimai-humanitar və intellektual reallıqlardan kənara çıxa bilmir, son nəticədə də orjinal fikir və düşüncə tərzi sərgiləyə bilmirlər.

Üçüncülər isə sadəcə təqlidçilərdir. Oxuduqları fikirləri, özlərinin olmayan qənaətləri özlərinin fikirləri kimi göstərməklə gündəmdə qalmaq istəyirlər. Bunlar populist araşdırmaçılardır.

Elmi tədqiqatçılıq da hər şeydən öncə vətəndaş mövqeyinə istinad edən ideya sənətidir. Obrazlı fikirdən, ideyadan, hipotezdən, ictimai-milli ideya yükündən məhrum olan tədqiqatın, araşdırmanın ömrü uzun olmaz.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim İbrahim Bayramov qeydsiz-şərtsiz birinci tip ziyalı pleyadasına daxildir.

O, milli-elmi tədqiqatçılığa klassik irsimizlə yanaşı müasir mədəniyyətimizin, onun tərkib hissəsi olan dilçiliyin, onun toponimik-onomastik sahəsinin inkişafına Qərbi Azərbaycan milli-linqvistik arialı Kontekstində diqqət yetirən peşəkar olaraq ciddi yanaşan intellektuallardandır. Bu mənada o, müasirliklə klassikliyin vəhdətindən qaynaqlanan yüksək vətəndaşlıq mövqeyi ilə seçilən ictimai-elmi simalardandır.

İbrahim Bayramovun elmi-tədqiqat sferasının tələb etdiyi yüksək vətəndaşlıq mövqeyi bu sahənin, - Qərbi Azərbaycanşünaslığın ehtiva etdiyi üç başlıca prinsipdən nəşət edir.

Birincisi, bu sahənin ehtiva etdiyi tarixə, onun mərhələlərə istinad edən başlıca yanaşma tendensiyalarına, onun simasını müəyyən edən ictimai-maarifçi və siyasi-inzibati kulliyatının obyektiv tədqiqatçı vicdanına köklənməsidir. Bunun üçün mütləq bu elmi-tarixi istiqamətin cəfakeş tədqiqatçısının tarixə, təsvir etdiyi dövrün çoxşaxəli istiqamətlər üzrə baş vermis və verməkdə olan tarixi transformasiya mərhələlərinə... dair ciddi bilgiyə, elmi baqaja malik olması çox vacibdir. O, əsərlərinin coğrafiyasına, əhatə etdiyi linqvistik arialın koqnitiv əsaslarına yanaşmanı özündə ehtiva edən araşdırmaçı potensialına malik peşəkarlardandır. Bu əsərlərdən Qərbi Azərbaycan Toponimlərinin tərkibində işlənən söz və terminlər lüğəti. Bakı, 2010; Qərbi Azərbaycanın Türk mənşəli Toponimləri, Bakı, 2011; Həqiqətin onomastikası, Bakı, 2021; Tarixi Azərbaycan Torpağı-Qərbi Zəngəzur, Bakı, 2023; Qədim Azərbaycan şəhəri İrəvan, Bakı, 2023 və b. göstərmək olar

İkincisi, tədqiqatlarında Qərbi Azərbaycanşünaslıqla bağlı ictimai-tarixi dövrləşmənin koloritini qorumaqla strateji hədəflərə köklənməsidir. Məsələn, o, "Həqiqətən onomastikası" adlı fundamental əsərində yazır ki, "Qədim yazılı mənbələr də təsdiq edir ki, erməni Konfessionimi altında tanıdılan haylar ilk dəfə bu regiona xristian missionerləri kimi gəlmişlər. Haylar ərəb xilafəti dövründə islam dinini qəbul edən Türk mənşəli oberigen boyların tərk etdikləri ərazilərdə bəzi dini məbədlərə sahib çıxmış, onları kilsəyə çevirmiş, elə oradaca saxta tarix yaratmağa başlamışlar. Halbuki istər Orta əsrlərə aid yazılı mənbələrdə, istərsə də Çar Rusiyasının işğalı dövrünün rəsmi sənədlərində, hərbi-topoqrafik xəritələrdə buradakı yer adlarının Azərbaycan Türklərinə və bütövlükdə azərbaycanlılara aid olduğu aydın şəkildə göstərilmişdir. Yeni Azərbaycan türklərinin və azərbaycanlıların əcdadları Cənubi Qafqazın, o cümlədən indi "Ermənistan Respublikası" adlanan dövlətin qədim sakinləri olan aborigen əhalisi idi (göstərilən əsəri, səh9)

Bu mənada Qərbi Azərbaycanşünaslıqla bağlı araşdırmaçı missiyasına sahib olan hər bir ziyalı vətəndaş təəssübkeşliyini mənimsəmək missiyasını yetərincə dəyərləndirməlidir. Bu professor İbrahim Bayramovun elmi-filoloji araşdırmaçılığını tamamlayan faktordur.

Üçüncüsü, Qərbi Azərbaycanşünaslıq milli ictimai-humanitar fikrimizin tamamlayıcı istiqamətlərindən biri olmaqla tarixiliklə müasirliyin vəhdəti permanent olaraq tədqiqatçı üslubundan doğan külliyatın ana xəttini təşkil edir. Əks halda həmin tarixi-ictimai tədqiqatlar duzsuz və səthi xarakter daşıyardı. Bu mənada bizlər keçmiş dövrü daha yaxşı görmək, anlamaq, dəyərləndirmək üçün müasir kreativlərlə tarixiliyə yeni prizmadan müraciət etməyimizin "qızıl qayda" olduğunu unutmamalıyıq.

"İrəvanda, həm də xanlığın bütün ərazisində fars, ərəb, erməni dili deyil, məhz Azərbaycan dilinin üstün təsir gücünə malik olduğunu və geniş yayıldığını aşağıdakı faktlar bir daha sübut edir. Matenadaranda saxlanılan məktubu 1784-cü ildə keşiş Qukas yazmışdır. Məktubda Gürcüstana " İrakliyə, Bayazidə İsak paşaya göndərilmiş bostan toxumlarının siyahısı verilmiş miqdarı və qiyməti göstərilmişdir. Erməni dilinin mahir bilicisi olan din xadimi-katrin toxumların demək olar hamısının adını azərbaycanca yazmışdır: buğda, qarpız, qara qarpız, yonca, xiyar, ispanaq, reyhan, badımcan, gül.." Mərkəzi İrəvan şəhəri olan eyni adlı Xanlığı 500 ilə yaxın 50 hakim idarə etmişdir ki, onların da hamısı azərbaycanlı idi".

Qərbi Azərbaycanın böyük Azərbaycan arialının ehtiva etdiyi məna tutumuna doğru məhək daşı olduğunu nəzərə alsaq, oranın bütün istiqamətlər üzrə araşdırılmasını müasir elmi tarixi istiqamətin mahiyyətinə çevirmək təkcə keçmişin məsləhət görüldüyü kimi yox, olduğu kimi araşdırılmasının milli missiya olduğunu görürük, Problemin müasir milli dövlətçilik siyasi kursunun təbii tələbləri kimi dəyərləndirilməsinə vahid tədqiqatçı meyarları ilə yanaşsaq professor İbrahim Bayramovun elmi zəhməti mühüm ictimai-tarixi missiya kimi dəyərləndirilə bilər.

Onun əsərlərinin coğrafiyası Qərbi Azərbaycanşünaslığın tədqiqat sahəsini zənginləşdirməklə bərabər gələcək inkişafının cilalanmasına da mühüm bir istiqaməti olaraq Qərbi Azərbaycanın linqvistik arialının daha əhatəli tədqiqatı üçün də ciddi başlanğıc və elmi mənbə rolunu oynayacaqdır. İndiyədək apardığı sistemli tədqiqatların yüksək elmi səviyyəsi bunların bariz göstəricisidir.

Bu da professor İbrahim Bayramovun elmi-tədqiqatçılıq missiyasına tamamilə yeni bir mahiyyət verir. Görkəmli rus alimi V.İ.Vernadski təbiət və cəmiyyətin qarşılıqlı fəaliyyəti nəticəsində yaranmış biosferin davamı olan noosferdən bəhs edərək yazırdı ki, insan öz fəaliyyəti nəticəsində biosferin yeni vəziyyətini, -yəni noosferi, yəni ağıl sferini, fövqəl şüuru yaradıb. Onun fəaliyyətinin nəticəsi olaraq dünyanın dəyişməz universal mahiyyətini, -böyük enerjini, Allahı yaradıb: " Bizim üçün ən müqəddəs anlayış mahiyyəti daşıyan həqiqət isə milli kimliyimizin müstəsna varisi olaraq Qərbi Azərbaycanı, -böyük Vətən torpağını bir-birinə bağlayan kilidi, yəni noosferi təfəkkür tərzimizin mahiyyətinə çevirməkdir. Bu mərama xidmət edən istənilən fikir, yazılan istənilən kitab, atılan istənilən addım müqəddəs missiyanın tərkib hissəsidir.

**P.S. Bu günlərdə respublikanın elmi-pedaqoji ictimaiyyəti onun anadan olmasının 70 illiyini qeyd etdi. Bizlər də bu təbriklərə qoşulur, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.**



**Həsən BAYRAMOV,**
***Bakı Qızlar Universitetinin "Pedaqogika" kafedrasının müdiri, pedaqogika elmlər doktoru, professor Pedaqoji və Sosial Elmlər***